## *1 Noyabr Kənd Təsərrüfatı İşçiləri Günüdür*

# Qısa zaman kəsiyində əsaslı dönüş

**Azərbaycan Respublikası keyfiyyətcə yeni sosial-iqtisadi inkişaf mərhələsinə qədəm qoyub. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilən iqtisadi islahatlar kursu uğurlu nəticələr doğurmaqda, ölkənin dayanıqlı tərəqqisi təmin etdirilməkdədir.**

Qeyri-neft sektorunun mühüm sahəsi olan kənd təsərrüfatının inkişafı ilə bağlı institusional yeniliklərin həyata keçirilməsi, dövlət dəstəyinin gücləndirilməsi bu sahənin keyfiyyətcə yeni inkişaf tempinin əsasını qoyub. Cənab Prezident tərəfindən ardıcıl imzalanan fərman və sərəncamlar, regionlara səfərlər aqrar sektorda çalışanların qarşılaşdıqları problemlərin tez bir zamanda həll edilməsi, onlara birbaşa və dolayı dəstəyin göstərilməsi, ixrac potensialının artırılması ilə bağlı atılan addımlar köklü dəyişikliklərə səbəb olub. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”ndə müəyyənləşdirilmiş kompleks tədbirlər aqrar sektorun yaxın illərdə daha sürətlə inkişaf etdiriləcəyini deməyə əsas verir. Artıq hazırlanmış monitorinq və qiymətləndirmə hesabatında cari ilin ilk yarısında Strateji Yol Xəritəsi üzrə tədbirlərin 32 faiz icra olunması, 59 faizinin isə icrasının başlanması yuxarıda qeyd etdiklərimizə ciddi sübutdur.

Ölkə başçısı tərəfindən “Ərzaq məhsullarının tədarükü və təchizatı” Açıq Səhmdar Cəmiyyətinin yaradılması da bu istiqamətdə növbəti addımlardan biridir və qurumun qarşısında aqrar sektorun sürətli inkişafını şərtləndirən ən vacib məsələlərin həlli dayanır. Fəaliyyət göstərdiyimiz on ayın yekun nəticələri deməyə əsas verir ki, ölkə üzrə tədarük-təchizat sistemi qənaətbəxş təşkil olunub, kənd təsərrüfatı istehsalçılarına əlavə bir dəstək mexanizmi işə düşüb. “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”nin icra vəziyyəti haqqında monitorinqin nəticələrinə əsasən, Səhmdar Cəmiyyətin həyata keçirdiyi işlər “Əsas icraçı qurumların performansı” şkalası üzrə 100 ballıq sistemlə hesablanmaqla 50 balla qiymətləndirilmişdir ki, bu da sevindirici bir göstəricidir.

Səhmdar Cəmiyyət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 aprel 2016-cı il tarixli 1944 №-li Sərəncamı ilə yaradılmışdır. Cəmiyyətin əsas məqsədi kənd təsərrüfatı məhsullarının istehsalını və (və ya) emalını stimullaşdırmaq, kənd təsərrüfatı məhsulları istehsalçılarının inkişafını təmin etmək, regionlarda kənd təsərrüfatı ilə məşğul olan əhalinin sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmaq, ərzaq məhsullarının keyfiyyətini, eləcə də dövlət vəsaitindən istifadənin səmərəliliyini artırmaq və dövlət sifarişi ilə ərzaq məhsullarının satınalınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini təmin etməkdən ibarətdir.

Səhmdar Cəmiyyətin fəaliyyətə başlaması üçün ilkin olaraq zəruri infrastruktur qurulmuş, Bakı şəhərində əsas logistika mərkəzi olmaqla 12 regional bölmə, 46 rayonda dayaq məntəqələri yaradılmış və regional bölmələr üçün inzibati bina, eləcə də anbarlar icarəyə götürülmüş, lazımi avadanlıqlarla təchiz edilmişdir. Hazırda Səhmdar Cəmiyyətin istifadəsində ümumi tutumu 19 min kvadratmetrdən çox anbar təsərrüfatı mövcuddur. Əlavə olaraq, gündəlik mal dövriyyəsini həyata keçirmək məqsədilə ümumilikdə 18 yük avtomobili icarəyə götürülmüş, Bakı şəhərində pərakəndə satış həyata keçirmək məqsədilə 10 əlavə yük maşını avtomobil parkına daxil edilmişdir.

Hesabat dövrü ərzində dövlət büdcəsindən maliyyələşən 863 satınalan təşkilatla 1919 təchizat nöqtəsinə məhsul təchizatı ilə bağlı müqavilələr bağlanılmışdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə təsdiq edilmiş “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satınalınması Qaydası”na müvafiq olaraq elektron portal (www.tedaruk.az) yaradılmış və 2016-cı il 8 noyabr tarixində istifadəyə verilmişdir. Elə həmin tarixdən satınalan təşkilatların tələbatları əsasında 173 növ məhsul üzrə satınalma elanı həmin portalda yerləşdirilmişdir. Portalda yerləşdirilən məhsullar üzrə satınalma qiymətləri mövcud qaydalara əsasən Kənd Təsərrüfatı Nazirliyi tərəfindən İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla topdansatış bazar qiymətləri kimi müəyyənləşdirilmiş və həmin qiymətlər satınalma qiymətlərində yuxarı hədd kimi təyin edilmişdir. Hazırda satınalan təşkilatların təqdim etdiyi tələbat planına uyğun olaraq məhsulların təchizatı həyata keçirilir. Portalda sözügedən elanın yerləşdirilməsindən sonra, cari ilin sentyabr ayının birinə qədər olan dövr üçün 1761 istehsalçı və satıcıdan təklif qəbul edilmişdir. Həmin təkliflər təhlil olunduqdan və təklif verən satıcıların istehsal prosesinə və məhsulların saxlanma şəraitinə baxış keçirildikdən sonra ən uyğun təklifi verən 376 müəssisə ilə satınalma müqaviləsi bağlanmışdır. Bütün proses elektron portal üzərindən həyata keçirilərək alqı-satqı sisteminin şəffaflığı təmin olunmuşdur.

2017-ci ilin 9 ayı ərzində dövlət büdcəsindən maliyyələşən dövlət satınalan təşkilatları 18 məhsul növü üzrə 37 min ton həcmində ərzaq məhsulları ilə təmin edilmiş, satınalınan məhsulun dəyəri 66 milyon 497 min manat təşkil etmişdir. Xüsusi qeyd etmək istəyirəm ki, bunun böyük hissəsi (395 nəfəri fermer və 276-sı şirkət olmaqla) yerli istehsalçılardan alınmışdır, bu, böyük həcmdə vəsaitin yerli istehsalçıların dövriyyəsinə daxil olması deməkdir.

Artıq Səhmdar Cəmiyyət 2018-ci il üçün satınalan təşkilatların ərzaq məhsullarına olan tələbatının həcmini müəyyən etmişdir. Səhmdar Cəmiyyət respublikanın müxtəlif ərazilərində fəaliyyət göstərən satınalan təşkilatları ilboyu 163 adda (mal əti və ət məmulatları, çörək və undan hazırlanan məmulatlar, süd və süd məhsulları, düyü, kərə yağı, meyvə-tərəvəz, şəkər tozu və s.) ərzaq məhsulları ilə təmin edəcəkdir. Səhmdar Cəmiyyət yerli istehsalçılara və satıcılara müraciət edərək “tedaruk.az” portalı üzərindən, orta bazar qiymətinə satınalınması nəzərdə tutulan ərzaq məhsullarının təklif edilməsinə dəvət etmişdir. Satınalınması nəzərdə tutulan ərzaq məhsulları barədə elanlar portalda yerləşdirilmişdir. 2018-ci illər üzrə satınalan təşkilatların tələbat həcmi proqnoz olaraq 79 min 409 ton müəyyən olunub. Bu isə o deməkdir ki, gələn il yerli istehsalçılara daha çox vəsait ödəniləcək.

Səhmdar Cəmiyyətin yaradılmasında əsas məqsədlərdən biri də Azərbaycan məhsullarının daxili tələbatdan artıq qalan hissəsinin dünya bazarlarına ixrac olunması, beləliklə də yerli istehsala dəstək verilməsidir. Bu istiqamətdə qurum fəaliyyətini aktiv şəkildə təşkil etmiş, milyon manatlarla dəyərində məhsul xarici ölkələrə ixrac edilmişdir. Cari ilin yanvar-sentyabr aylarında ümumi həcmi 81,3 min tona yaxın kənd təsərrüfatı məhsulu birbaşa istehsalçılardan tədarük edilərək satınalan təşkilatların təchizatına və ya daxili və xarici bazarlara yönləndirilmişdir.

Məhsul istehsalı üçün avans ödənişi ilə bağlı, cari ilin aprel ayından etibarən Səhmdar Cəmiyyət tərəfindən kütləvi informasiya vasitələrində elanlar verilmiş və geniş təbliğat işləri aparılmışdır. Bu proses nəticəsində 309 istehsalçıdan müxtəlif məhsullar üzrə müraciət daxil olmuşdur. Həmin istehsalçıların monitorinqi həyata keçirilərək, istehsal potensialı və təqdim edilən sənədlərin düzgünlüyü təsdiq olunan 123 təsərrüfat subyektinə 11 adda məhsul istehsalı üçün 2 729 459 manat avans ödənilmişdir.

Ötən dövr ərzində Səhmdar Cəmiyyətin rəhbərliyi və müvafiq struktur bölmə müdirlərinin iştirakı ilə regional bölmələrinin fəaliyyətinə, müvafiq anbar və dayaq məntəqələrinə, eləcə də avans üçün müraciət etmiş istehsalçıların əkin sahələrinə yerində baxış keçirilməsi məqsədilə regional bölmələrin və dayaq məntəqələrinin yerləşdiyi bütün rayonlara səfərlər həyata keçirilmiş, qarşıya çıxan problemlər müzakirə olunmuş, tədarük və təchizat sisteminin səmərəli fəaliyyətinə mənfi təsir edə biləcək nöqsanların aradan qaldırılması təmin edilmişdir. Eyni zamanda, qurumun fəaliyyətinin regionlardakı istehsalçılara çatdırılması məqsədilə müvafiq reklam və təqdimat materialları hazırlanaraq müxtəlif yerlərdə - əsas magistral yolların kənarlarında, yaşayış məntəqələrinin yaxınlığında yerləşdirilmiş, məhsulların saxlanması qaydaları ilə bağlı müvafiq təlimatlar hazırlanaraq aidiyyəti regional bölmələrə və dayaq məntəqələrinə təqdim olunmuşdur.

Səhmdar Cəmiyyət tərəfindən istehsalçılardan tədarük edilmiş məhsulların satınalan təşkilatlara təchiz edilməyən hissəsinin daxili bazarda satışının təşkili ilə bağlı da müvafiq işlər görülmüşdür. Belə ki, paytaxtın müxtəlif rayonlarında, eləcə də regionlarda təşkil olunan yarmarkalarda Səhmdar Cəmiyyətin aktiv iştirakı təmin olunmuş və müvafiq məhsullar yarmarkadakı digər satıcılarla müqayisədə 20-30% aşağı qiymətlə alıcılara təklif edilmişdir. Bu proses hazırda davam etdirilir.

Həmçinin toplanmış kənd təsərrüfatı məhsullarının birbaşa istehlakçıya təqdim olunması məqsədilə “Gəzər Bazar” səyyar satış konsepsiyası işlənib hazırlanmış və bu brend adı altında 10 ədəd avtomobil ilkin olaraq Bakı şəhərində fəaliyyətə başlamışdır.





Ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxarılması üçün mütəmadi olaraq xarici bazarlarda müvafiq araşdırmalar aparılmış, sahibkarlar tərəfindən daxil olan təkliflər müzakirə edilmiş, yerli məhsulların ixracı üçün Rusiya, Belarus, Ukrayna, Çexiya, Fransa, BƏƏ, Bəhreyn, Qətər Əmirliyi kimi ölkələrdə yerləşən ərzaq firmalarına əməkdaşlıq məktubları göndərilmiş və onlarla bir sıra məhsuldar görüşlər keçirilmişdir. Məsələn, Rusiyanın iki iri ticarət şirkəti ilə ASC arasında müqavilə imzalanmışdır. Müqaviləyə əsasən, şirkətlərə ölkədən meyvə-tərəvəz ixracı nəzərdə tutulub və müqavilə çərçivəsində məhsulların partiyası göndərilməyə başlanmışdır.

İxracla bağlı görülən işlər nəticəsində dəyəri 54 milyon manatdan çox olan 43,5 min tona yaxın məhsul ixracı həyata keçirilmişdir. Xüsusi olaraq qeyd edilməlidir ki, ölkənin ixrac coğrafiyasında nisbətən yeni olan ərəb ölkələri ilə aparılan danışıqların nəticəsi kimi, cari ilin sentyabr ayında Qətərə bir bir yük maşını (TIR) müxtəlif məhsulların ilk partiyası yola salınmış, növbəti aylarda bu istiqamətdə satışın daha da artırılması gözlənilir.

Beynəlxalq əməkdaşlıqların qurulması və investisiyaların cəlb olunması sahəsində lazımi işlər görülməkdədir. Ötən müddət ərzində ölkə başçısının tapşırığına əsasən, Azərbaycan Respublikasına xarici investisiyaların cəlb edilməsi, qeyri-neft sektoru məhsullarının xarici bazarlara ixrac edilməsi, alternativ bazarların araşdırılması və xarici investisiyaların cəlb olunması məqsədi ilə çoxsaylı görüşlər keçirilmişdir. Macarıstan, Almaniya, Ukrayna, Rusiya, Belarus, Bəhreyn, BƏƏ kimi ölkələrə səfərlər həyata keçirilmiş, Koreya, Yaponiya, Belarus, Türkiyə, Macarıstan və s. ölkələrin diplomatik korpusunun nümayəndələri ilə müzakirələr aparılmış, ölkənin ixrac imkanları, investisiya mühiti ilə bağlı geniş məlumatlar verilmişdir.

Həyata keçməkdə olan bir sıra əməkdaşlıq layihələri haqda xüsusi danışmağa artıq ehtiyac vardır. İtaliyan investorlarının vəsaiti hesabına Zirə qəsəbəsində istixana kompleksinin tikilməsində birgə əməkdaşlıq barədə memorandum imzalanmışdır. Bunun nəticəsi olaraq, 21 ha ərazidə müasir tipli istixanaların tikilməsi üçün birgə müəssisə yaradılmış, yaxın aylarda müəssisə tərəfindən istixanaların tikintisinə başlanılması nəzərdə tutulur. Birgə müəssisənin nizamnamə kapitalında “Ərzaq məhsullarının tədarükü və təchizatı” ASC-nin səhm payı 51%, qarşı tərəfin səhm payı 49% təşkil edir. Səhmdar Cəmiyyət öz növbəsində torpaq sahəsi, kommunikasiya xətlərinin çəkilməsi, investisiya təşviqi sənədinin alınması kimi işləri öz öhdəsinə götürmüşdür.

Çin Xalq Respublikasının YTO korporasiyası, “Aqrofun” MMC və Səhmdar Cəmiyyət arasında imzalanmış müqaviləyə əsasən, Qusar rayonunda ildə 800 ədəd orta ölçülü traktorların yığılması barədə razılıq əldə edilmiş, cari ilin may ayında Bakı EXPO Mərkəzində keçirilmiş Kənd təsərrüfatı məhsullarının sərgisində geniş stendlə təmsil olunmuş, sərginin açılışına gəlmiş ölkə başçısına təqdim olunaraq onun xeyir-duası alınmışdır. Layihənin dəyəri 10 milyon dollar həcmində qiymətləndirilir.



Bəhreyn Krallığının şirkətləri ilə əməkdaşlıq da bizim üçün mühüm əhəmiyyət kəsb etməkdədir. 2017-ci ilin 6-8 iyun tarixlərində Səhmdar Cəmiyyətin nümayəndə heyəti Bəhreyn Krallığına işgüzar səfərdə olmuş, səfər çərçivəsində krallığın rəsmi dəstək verdiyi bir sıra özəl şirkət və investisiya fondları ilə, o cümlədən “Mumtalakat” Holdinq, “Arcapita” İnvestisiya Fondu, Riyada Şirkətlər Qrupu, BCGCM Şirkəti və Bəhreyn İqtisadi İnkişaf Şurası ilə görüşlər keçirilmiş və müvafiq məsələlər (kənd təsərrüfatı məhsullarının ixracı, investisiyaların cəlb olunması, birgə layihələr və s.) müzakirə edilmişdir. Görüşlər nəticəsində məlum olmuşdur ki, ərəb ölkələri Azərbaycan məhsullarının ixracı və ölkə iqtisadiyyatına investisiyaların cəlb olunması baxımından olduqca geniş imkanlara malikdir. Bir çox fondlar Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalından satışına qədər zənciri əhatə edən səmərəli layihələrə aktiv iştirak etmək və ölkəmizə 100-500 milyon ABŞ dolları həcmində investisiya qoyuluşunu həyata keçirməkdə maraqlıdır.

Beləliklə, fəaliyyətimizin on ayına yekun vururuq. Arxada qoyduğumuz bu dövr bizim üçün təcrübələrin qazanılması, formalaşma baxımından çox səmərəli oldu. İrəlidəki illərdə daha peşəkar bir fəaliyyəti həyata keçirərək ölkəmizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacağımıza əminik. Bu əminliyimizin səbəbi odur ki, yaxın gələcəklə bağlı ciddi strateji planlarımız da mövcuddur. Qurumun fəaliyyət göstərdiyi dövr ərzində işinin daha səmərəli qurulması, ölkədə tədarük-təchizat sisteminin daha operativ qurulması üçün təkliflər paketi hazırlanaraq aidiyyəti təşkilatlara təqdim olunmuşdur. Hesab edirik ki, Səhmdar Cəmiyyət tərəfindən irəli sürülən təkliflər yaxın vaxtlarda həyata keçəcək və nəticədə həmin məsələlərin həll olunması qurumun fəaliyyətinin səmərəliliyinə yüksək təsir göstərəcəkdir.

Sonda 1 Noyabr — Kənd Təsərrüfatı İşçilərinin Peşə Bayramı münasibəti ilə əli torpaqda, zəhmət təri alında olan hər bir vətəndaşımızı ürəkdən təbrik edirəm. Möhtərəm Prezidentimizdən nümunə götürərək doğma yurdumuzun inkişafı yolunda yorulmadan çalışmalıyıq. Cənab İlham Əliyevin dediyi “Bir qarış da torpaq boş qalmamalıdır!” tapşırığı bizim qarşımızda qoyulan mühüm, həm də şərəfli bir vəzifədir.

**Əbülfət QOCAYEV,**
***“Ərzaq məhsullarının tədarükü və təchizatı” Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri.***